**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№316/3** **28 dekabr 2019-cu il**

**“Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2020-ci il üçün Plan-qrafik”in təsdiq edilməsi barədə**

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"a uyğun olaraq Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin (V.Kərimov) və Auditin keyfiyyətinə nəzarət şöbəsinin (Y.Namazəliyev) təqdim etdikləri “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2020-ci il üçün Plan-qrafik”in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2020-ci il üçün 1 və 2 nömrəli Plan-qrafik”lər təsdiq edilsin (əlavə olunur).
2. Keyfiyyətə nəzarət üzrə komitənin sədri V.Kərimova və Auditin keyfiyyətinə nəzarət şöbəsinin müdiri Y.Namazəliyevə tapşırılsın ki, 2020-ci il üçün nəzərdə tutulmuş auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsini Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"a uyğun olaraq vaxtında və keyfiyyətlə yerinə yetirilməsini təmin etsinlər.
3. Bu qərarın mətninin və ona əlavə olunan "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2020-ci il üçün 1 və 2 nömrəli Plan-qrafik"lərin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**